## *PSİXOLOGİYA VƏ KORREKSİYA PEDAQOGİKASI*

UOT 159.9

***Sevinc Sabir qızı Quliyeva***
*AMEA-nın Fəlsəfə İnstitutunun*
*fəlsəfə doktoru hazırlığı üzrə doktorantı*

# DEVİANT DAVRANIŞ OLAN CİNAYƏTKARLIĞIN SOSİAL-PSIXOLOJİ VƏ İQTİSADİ ASPEKTLƏRİ

***Севинджь Сабир гызы Гулиева***
*докторант по подготовке доктора философии*
*Институт Филосо́фии Национальной Академии Наук Азербайджана*

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ И ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ ПРЕСТУПНОСТИ, ЯВЛЯЮЩЕЙСЯ ДЕВИАНТНЫМ ПОВЕДЕНИЕМ

***Sevinj Sabir Guliyeva***
*doctoral candidate for Ph.D.*
*Institute of Philosophy of the National Academy of Sciences of Azerbaijan*

# SOCIO-PSYCHOLOGICAL AND ECONOMIC ASPECTS OF CRIME, WHICH IS DEVIANT BEHAVIOR

**Xülasə:** Məqalədə deviant davranış olan cinayətkarlığın sosial-psixoloji və iqtisadi aspektləri araşdırılır. Hüquqi dövlət olan respublikamızda heç bir cinayət hüquqi cəzasız qalmır. Onda belə bir sual ortaya çıxır. Əgər cinayətin hüquqi cəzası varsa insan niyə bilərəkdən cinayətkar olur? Bu suallara məqalədə cavab tapmaq olur. Məqalə deviant davranış məsələləri ilə bağlı araşdırmalar aparan gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

***Açar sözlər:*** *sosial-psixologiya, yeniyetməlik, gənclik, deviant davranış, cinayət, cinayətkarlıq*

**Резюме:** В статье исследуются социально-психологические и экономические аспекты преступности, являющейся девиантным поведением. В нашей республике,которая является правовым государством, ни одно преступление не остается безнаказанным. Тогда возникает такой вопрос. Почему, зная, что преступление наказуемо, человек переступает закон и становится преступником? В данной статье можно найти ответы на эти вопросы. Статья будет полезна молодым исследователям, занимающихся изучением вопросов девиантного поведения.

***Ключевые слова:*** *социальная психология,подростковость,молодежь,девиантное поведение, преступление,преступность*

**Summary:** The article explores the socio-psychological and economic aspects of crime, which is deviant behavior. In our republic, which is a law-governed state, no crime goes unpunished. Then a question arises. Why, knowing that a crime is punishable, a person transgresses the law and becomes a criminal? In this article you can find answers to these questions. The article will be useful to young researchers who are studying the issues of deviant behavior.

***Key word:*** *social psychology, adolescence, youth, deviant behavior, crime, crime*

Hüquqi dövlət olan respublikamızda heç bir cinayət hüquqi cəzasız qalmır. Elə isə belə bir sual meydana çıxır. Əgər cinayətin hüquqi cəzası varsa, insan niyə bilərəkdən cinayətkar olur? Bildiyimiz kimi, insan cəmiyyətdə şəxsiyyətə çevrilir və bu prosesdə şəxsiyyətə cəmiyyətin müsbət təsiri olduğu kimi, o, mənfi təsirlərindən də yan keçə bilmir. Ailə isə şəxsiyyətin

formalaşması üçün ən başlıca sosial mühit hesab olunur. Ailədə da həddən artıq nəzarət və ya nəzarətsizlik böyük əhəmiyyətə malikdir. Araşdırmalar göstərir ki, ailə mühiti baxımından uşağı cinayətə itələyən həddindən artıq intizam qədər diqqətsizlik, laqeydlik və məsafəli davranışların, mənfi təzyiqin, zor tətbiq etmənin, yersiz cəzalandırmaların, düzgün qiymətləndirməmənin də özünəməxsus yeri var. Eyni şeyi, məktəb mühiti, yaxın dostların əhatəsi üçün də deyə bilərik. Deməli, cinayətkar, mənfi inkişaf şəraitində yetişmiş, insan olaraq layiq olduğu dəyər və diqqəti almamış bir adamdır.

Bir çox psixoloji ədəbiyyatlarda insanın müxtəlif təriflərinə rast gəlmişik: İnsan inkişaf edən, dəyişən və özünü təkmilləşdirən sistemdir (1). Lakin bu, o demək deyil ki, insan yalnız müsbət tərəfləri ilə insandır. Yəni insan bir tərəfdən cəmiyyətdə yaşayıb, cəmiyyətin bir üzvünə çevrilərək mədəniyyətin, sivilizasiyaların inkişafına kömək göstərərək, özünü almaz kimi cilalayaraq şəxsiyyətə çevrilir, digər tərəfdən isə, cəmiyyət tərəfdən qəbul olunmayan, əxlaq normalarına zidd olan, asosial davranışlar nümayiş etdirərək kriminal şəxsiyyət kimi də özünü büruzə verir. Ümumiyyətlə, insanın necə bir şəxsiyyət olması onun ən yaxın ətrafından başlayaraq içində olduğu cəmiyyətə xas xüsusi şərtlər və insanın bunlarla qarşılıqlı əlaqəsi təyin edər.

Əgər biz normadan kənar davranış olaraq cinayətdən danışırıqsa onda cinayətin mahiyyətinə nəzər salmalıyıq. Cinayət - cinayət qanunu ilə mühafizə edilən ictimai münasibətlərə mühüm ziyan yetirən və yaxud ziyan yetirməsi təhlükəsi yaradan, cinayət qanunu ilə nəzərdə tutulan ictimai-təhlükəli, qeyri-hüquqi, təqsirli, cəzalanmalı olan və qeyri-əxlaqi olan əməldir (2). Deməli, cinayət təhlükəli hərəkət olub cəmiyyətin mövcud qanun və qaydalarına qarşı gəlməkdir. Daha dəqiq desək, cinayət – hüquqi cəzası olan səhv hərəkətdir.

Sərxoşluğun, narkomanlığın əksəriyyət hallarda cinayətlə nəticələnir. Sosial norma və qanuna qarşı gəlmə halları cinayət kimi qiymətləndirildiyindən, bunun səbəbinə nəzər salmaq, araşdırmaq və nəticə etibarilə konkret təkliflər verməyi özümüzə borc hesab etdik. Bunun üçün isə insan və şəxsiyyət anlayışına nəzər salaraq, onun cinayəti törətmə səbəblərini aydınlaşdırmağa çalışdıq.

Respublika Statistika Mərkəzinin məlumatına (3), əsasən törədilmiş cinayətlərin sərxoşluqla və narkotiklə əlaqədar olan rəqəmlərin müqayisəsi üçün aşağıdakı diaqramları tərtib etmiş və deviant davranışdakı zənciri göstərməyə çalışmışıq. Verilmiş diaqramlardan da aydın görünür ki, deviant davranışların formalaşması ardıcıllıq təşkil edir. Belə ki, sərxoşluq öz təsirini itirəndə yerini narkotik vasitələrə əvəzləşdirər. Bu iki deviant hal həmişə cinayətlə (qəsdən adamöldürməyə cəhd, qəsdən adamöldürmə, oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, xuliqanlıq) nəticələnib. Aşağıdakı diaqramlarda respublika üzrə qeydə alınmış statistik məlumatlar yer almışdır.




**Diaqram 1. Respublika üzrə sərxoş halda cinayət törədən şəxslərin illər üzrə statistikası**

Diaqramdan göründüyü kimi, 2007-ci ildə 659 nəfərlə qeydiyyata alınmış cinayətkarlar 2009-cu ildə 770 nəfərlə, 2011-ci ildə 786 nəfərlə ən yüksək səviyyəsində olmuş, 2016-cı ildə isə bu rəqəm aşağı düşmüşdür.




**Diaqram 2. 18-24 yaş arası cinayət törətmiş gənclərin nəfərlə sayı**

Diaqram 2-də isə məhz 18-24 yaş arası cinayət törətmiş gənclərin nəfərlə sayı verilmişdir. Diaqrama əsasən ən yüksək göstərici 2010-cu ildə 231 nəfərlə özünü göstərməsinə baxmayaraq 2016-cı ildə 176 nəfərlə aşağı göstərici ilə özünü göstərmişdir. Bu isə sevindirici hal hesab oluna bilər ki, cinayət törədən gənclərimizin sayı azalmağa doğru gedir. Bunun əksi olaraq 25-29 yaş arası gənclər arasında narkotik vasitələrlə bağlı cinayət törətmiş gənclərin sayı artan sıra ilə diaqram 3-də özünü göstərmişdir. Belə ki, ən aşağı nəfər sayı ilə (334 nəfər) 2012-ci ildə rəsmi qeydiyyata alınmış gənclərin sayı 2016-cı ildə yüksələrək 412 nəfərə çatmışdır.




**Diaqram 3. Narkotik vasitələrlə bağlı törədilmiş cinayət haqqında statistika**

Respublika Statistika Mərkəzinin məlumatına əsasən, məhz narkotik vasitələrlə bağlı cinayət törətmiş qadınların 2007-ci ildə 73 nəfərlə müşahidə olunsa da bu rəqəm 2009-cu ildə 85 nəfərlə pik olmuş, lakin 2010-cu ildən isə dalğalanma ilə müşahidə olunmuşdur. 2014-cü ildə 75 nəfərlə qeydə alınmış cinayətkar qadınların sayı 2016-cı ildə iki dəfə azalaraq 37 nəfərə düşmüşdür.

Kişilərlə müqayisədə qadınlar arasında cinayətə meyililik çox aşağıdır. 2009-cu ildə 16752 nəfərlə kişilər, qadınlar isə onlardan 6 dəfə az rəqəmlə - 2665 nəfərlə qeydiyyata alınmışdır. Bu rəqəmlər göstərir ki, kişilər arasında cinayətə meyillilik qadınlarla müqayisədə daha çoxdur (diaqram 5).




**Diaqram 4. Respublika üzrə narkotik vasitələrlə bağlı cinayət törətmiş qadınların statistikası**




**Diaqram 5. Respublika üzrə cinayət törətmiş şəxslərin cinsinə görə statistika**

Apardığımız tədqiqatlar sübuta yetirmişdir ki, 18-24 yaş Aş metodu ilə desək hipersuqestiv (asanlıqla təlqinə qapılan), 25-39 yaş arası gənclər isə hiposuqestivdirlər (çətin təlqinə qapılan). Aşağıdakı diaqramdan da aparılmış tədqiqatımızın həqiqliyini görməməzlikdən gələ bilmərik.




**Diaqram 6. Respublika üzrə cinayət törətmiş şəxslərin sosial-demoqrafik əlamətlərinə görə statistika**

Tədqiqat obyektimiz Gəncə gəncləri olduğu üçün biz Gəncə Şəhər Baş Polis İdarəsindən sosial demoqrafik əlamətlərinə görə – həm yaş kateqoriyalarına, həm də cinsiyyətə görə statistik rəqəmlər əldə etdik.

**Cədvəl 1.**

| Sıra № | Davranış forması | Yaş və cins kateqoriyaları | | İllər üzrə statistik məlumatlar | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| 1 | Cinayətkarlıq | 18-20 | kişi | 9 | 9 | 6 | 4 | 6 |
| | | | qadın | | 1 | | | 1 |
| | | 21-24 | kişi | 37 | 38 | 32 | 22 | 39 |
| | | | qadın | 2 | 2 | 1 | 2 | 1 |
| | | 25-29 | kişi | 69 | 86 | 44 | 31 | 34 |
| | | | qadın | 1 | 13 | | 4 | 5 |

Bu cədvəldən də göründüyü kimi, ən çox cinayət törətmiş şəxslər 25-29 yaş arası kişiləri əhatə edir. Belə ki, cədvəl üzrə 2010-cu ildə 86 nəfər olmuş, 2013-cü ildə isə 34 nəfər olmaqla azalmışdır. 21-24 yaşında olan gənclərə nəzər salsaq görərik ki, 25-29 yaş həddində olan kişi

sayından fərqli olaraq 2009-cu ildən 2013-cü ilə qədər artan sıra ilə inkişaf etmişdir. Belə ki, 2009-cu ildə 37 nəfərlə qeydiyyata alınmış say 2013-cü ildə 39 nəfərlə müşahidə olunur.

Yuxarıda göstərilən statistik rəqəmlərdən də görünür ki, deviant davranışlar ilk olaraq cinayətkarlıqla sonlanır. Bunun isə həm sosial psixoloji – ailədaxili münaqişələr, düzgün seçilməyən ətraf mühit – təsir, həm də sosial-iqtisadi – kasıblıq, işsizlik, həddən artıq zənginlik – təsirlə əlaqəsi var. "Uşaq ailənin güzgüsüdür" misalından yanaşsaq, sərxoşluğa, narkomanlığa meyilli olan, bunun nəticəsində, yaxud fərqli səbəbdən cinayət törədən gənclərimizə nəzər salsaq, atalar sözünün öz doğruluğuna əmin olarıq. Çünki sağlam olmayan mühitdə sağlam şəxsiyyətin formalaşması mümkün deyil. Sağlam ailədən də cinayətkar övlad çıxır. Burda ətraf mühitin rolu qaçılmazdır. Düşünürəm ki, bir insan görəndə ki, mühit korlanıb ona meyil etmək əvəzinə özünü ondan mühafizə etməyə meyillənməlidir, necə ki, soyuq havada qalın geyinir.

Şəxsiyyət kimi formalaşmaqda olan yeniyetmə və gənclərə lazımi dəyərin verilməsi, zor və təzyiqin göstərilməməsi, ümumi qaydaların onların anlayacağı dildə düzgün izah edilməsi, mümkün qədər məhdudiyyətlərin qoyulmaması, ailədə, məktəbdə davranışlarına görə düzgün rəğbətləndirilməsi, ayrı-ayrı tədbirlərdə söz haqqına yiyələnməsi onun cinayətkar olma ehtimalını aşağı salır. Belə ki, sadalananlar formalaşmaqda olan şəxsiyyətə ilk öncə özünənəzarətin artırılması, özünü düzgün qiymətləndirməsi, sosial normalara riayət etməsi, ailədə, məktəbdə, dostları ilə münasibətdə daha qayğıkeş, səmimi olması, sağlam düşünüb təhliletmə və nəticə çıxarma kimi məsuliyyətləri yükləmiş olur və nəticə etibarı ilə cinayət törətməkdən uzaqlaşdırır.

**Problemin aktuallığı.** Deviant davranış olan cinayətkarlığın sosial-psixoloji və iqtisadi aspektlərinin araşdırılması müasir mərhələdə aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Deviant davranış olan cinayətkarlığın sosial-psixoloji və iqtisadi aspektləri diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə deviant davranış məsələləri ilə bağlı araşdırmalar aparan gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2009.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996.
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003.
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə. və Seyidov İ.Ə. Məhkəmə psixologiyası məsələləri. Bakı: ADU, 1985.
5. Bayramov Ə.S., Əlizadə Ə.Ə. və Seyidov İ.Ə. Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri. Bakı: ADU , 1987.
6. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012.
7. http://kayzen.az/blog/law/7883/cinayət-qanunu-və-cinayət-anlayışı.
8. https://www.stat.gov.az/


E-mail: sevinc-g2010@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok.,prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub:** 14.04.2018